Xalidə Nuray

İsmayılova Xalidə Qələndər qızı. 1962-ci ildə Naxçıvan MR,Şərur rayon,Oğlanqala kəndində dünyaya göz açıb.1969-1979-cu ildə orta məktəbi,1981-1985-ci ildə Yusif Məmmədəliyev adına ,Naxçıvan Dövlət Universitetinin İTPM (İbtidai Təhsil Pedaqogika və Metodikası)fakültəsini bitirib.Bir neçə il orta məktəbdə,ibtidai sinif müəlliməsi, 5 il Bağça müdirəsi,2il Ali təhsil müəsisəsində (Ali Tətbiqi Elmilər Kollecində) müəllimə işləyib.

"Xəyallarımın göz yaşı"adlı şeirlər və hekayələr kitabının müəllifidir.Türkmen Edebiyyatçı və Yazarlar Birliginin üzvüdür.Ailəlidir,üç övladı və iki nəvəsi var.

Sevgi ağlayır

Bir sevgi ağlayır içimdə yenə,
Qəhrinə düşübdü ötən illərin.
Söndürüb eşqindən yanan çırağı,
Zülmünə sığınıb itən illərin.

Yol gedir ümidlər zülmətə sarı,
Özümü-özümdə tapa bilmirəm.
Sənli xatirələr didir qəlbimi,
Suallar əlindən qopa bilmirəm.

Ruhuma can verir arzu-diləyim,
Gözümdən məhəbbət axır yaş kimi.
Tablaşmır ürəyim, ürək neyləsin,
Nifrətə sarılıb olub daş kimi.

Yetim uşaq kimi ağlayır sevgim,
Neyləsin ocağı uçub, dağılıb.
Göz yaşı içində sökük divardan,
İslanan şəklimiz asılı qalıb.

Bu nə sirdir İlahi

Nə zaman doğulur nə zaman ölür,
Dərk etmirik bu nə sirdir, İlahi?
Olanda da, öləndə də ağlayır,
Heç bilmirik bu nə sirdir, İlahi?

Kiminin bəxtinə sevinc ələyir,
Kiminsə könlünü qəmə bələyir,
Qismətə,taleyə məğlub eyləyir,
Heç bilmirik bu nə sirrdir, İlahi?

Uşaqlıqda nələr olur bilmirsən,
Cavanlığın yaşa dolur bilmirsən,
Gözəlliyin gül tək solur bilmirsən.
Heç bilmirik bu nə sirrdir,İlahi

Gördüklərin keçmişinə ox olur,
Sevinən az, kədərlənən çox olur,
Bu gün olan, sabah üçün yox olur.
Heç bilmirik bu nə sirrdir,İlahi?

Xəyallarımın göz yaşı

Xəyaldan asılı ümidlərimdən,
Sevgisiz həyata nifrət doğulur.
Arzular dalınca qaçan könlümün,
Gözündə boy atan arzu böğulur.

Üçan xəyalımda gizlənir eşqim,
Allanır həyalı utanc yanağım.
Hərdən küskünləşib boynunu bükür,
Hərdən gülüşümə olur qonağım.

Nəmli xəyalımın göz yaşı olur,
Üşüyən ümidin, donan baxışın.
Könüldə silinməz ilmə toxuyur,
Qəlbimi oxşayan sevda naxışın.

Qara xəyallarım azır səmada,
Zülmətə bürünür, dolur buludlar.
Qərib duyğularım göz yaşlarıyla,
Əl atıb içimdə köksümü odlar.

Buludlar içində ötən xəyallar,
Məni uzaqlara aparır yenə.
Bir vüsal soraqlı dərd aşiqi tək,
Məni öz mənimdən qoparır yenə.

Naxçıvanım

Naxçıvanım qeyrət qalam,
Doğma müqəddəs torpağım.
Qərinələr yaddaşısan,
Məğrur, bölünməz oylağım.

Ayna gözlü "Zorbulağın",
"Əlincən" alınmaz qala.
Batabatın havasında,
Könül istər yata, qala.

Əshabi-Kəhf məbəd yerin,
Daşlarından şəfa damar.
Ümidlərlə qovuşanda,
Dərdlilər əlacın tapar.

Mirzə Cəlil hər daşında,
Qopan haqqın sədasıdı.
Məmməd Said Ordubadi,
Nəsrimizin nidasıdı.
Vətəniylə qucaqlaşan,
Cavidin həsrət gözüsən.
Məmməd Araz dühasının,
Şah əsəri, şah sözüsən.

Mömінə-Xatun türbəsi,
Hüsnünə bir yaraşıqdı.
Qürbətdə Təbriz elinə,
Şərqdən boylanan işıqdı.

Hər an səni didib udan,
Düşmənlərə göz dağısan.
Unutmasın düşmənlərin,
Nuh Peyğəmbər ocağısan.

Xalidəyəm, hər an sənin,
Sevgin ilə yaşayıram.
Səndən aldığım qüruru,
Fəxarətlə daşıyıram.

Oğul gərək

Vətənimi qorumağa-
Mübariz tək məğrur, qorxmaz,
Əsrlərlə yaddan çıxmaz,
Damarında,
qanla qoşa qeyrət axan,
Tapdaq "Vətən"torpağında,
Şimşək kimi alov çaxan,
İldırım tək parçalayan,
Oğul gərək!
Vətənimi qorumağa-
Arxasına dönüb baxmaz,
Vətəninin şərəfinə qara yaxmaz,
Həyatını qurban verən,
Qürüruyla, hünəriylə,
Hər əzaba sinə gərən,
Düşmənin murdar izini,
Öz qanıyla daşdan silən,
Fərid kimi paralayan,
Oğul gərək!
Vətənimi qorumağa-
Soy -kökündən əsla dönməz,
Tarixlərin yaddaşında heç vaxt ölməz,
Milyonları bir ürəkdə qovuşduran,
Ocağında qora dönüb alışdıran,
Vətənimdən ayrı düşən,
Ulduzları barışdıran,
Öz canını ana yurdun
Torpağına qarışdıran,
Vətən üçün ölümüylə qürurlanan,
Oğul gərək